

# Azərbaycan reallıqlarının BMT-dən dünyaya nümayişi



**Prezident İlham Əliyev BMT-də çıxışı zamanı bir çox məsələ ilə yanaşı, 2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyasını və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğuna diqqət çəkdi. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti Azərbaycanın BMT ilə əməkdaşlığında ən mühüm istiqamət olub. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı dörd qətnamə ilə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək verib və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edib. Lakin həmin sənədlərin icra olunmaması BMT mexanizmlərinin zəifliyini ortaya qoyub.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan uzun illər bu qətnamələrin yerinə yetirilməsini tələb etsə də, beynəlxalq ictimaiyyətin susqunluğu nəticəsində 2020-ci ildə öz ərazilərini hərbi-siyasi yolla azad etməyə məcbur olub: "44 günlük Vətən müharibəsi BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulan özünümüdafiə hüququnun ən bariz nümunəsi idi. Bu, eyni zamanda Azərbaycanın beynəlxalq hüquqa sadiqliyinin və öz suveren hüquqlarını qoruma əzmindən geri çəkilmədiyinin göstəricisi oldu".

Deputat qeyd edib ki, Azərbaycanın humanitar gündəliyi də BMT ilə münasibətlərdə mühüm yer tutur. Ermənistanın işğalı nəticəsində 3890 Azərbaycan vətəndaşının itkin düşməsi faktı mütəmadi olaraq BMT Baş Assambleyasında gündəmə gətirilir. Azərbaycan bu məsələdə xüsusi məruzəçi institutunun yaradılmasını təklif edərək, beynəlxalq ictimaiyyəti daha səmərəli fəaliyyət göstərməyə çağırır. Bu problem sülh gündəliyinin də mühüm tərkib hissəsidir və ayrıca maddə ilə şərtləndirilib. "Eyni zamanda mina təhlükəsi işğaldan azad olunmuş ərazilərin inteqrasiyasına ən böyük maneələrdən biri olaraq BMT-də qaldırılan prioritet məsələlərdəndir. Azərbaycan bu problemi Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə birbaşa əlaqələndirərək mina təmizlənməsini yeni bir məqsəd kimi irəli sürüb və hətta milli səviyyədə "DİM 18" qəbul edib. Bu yanaşma Azərbaycanın təkcə milli deyil, həm də beynəlxalq miqyasda innovativ və qabaqcıl təşəbbüslərlə çıxış etdiyini göstərir", - deyə o əlavə edib.

Pərvanə Vəliyeva vurğulayıb ki, Prezident İlham Əliyev müharibəni də, sülhü də qazandığımızı qeyd edib. Cənubi Qafqazda yeni nizam, yeni reallıq yaradan tarixi Zəfərdən sonra məhz Prezident İlham Əliyevin təşəbbüsü və müəllifliyi ilə bütün Azərbaycan xalqının gözlədiyi ədalətli sülh gündəliyi irəli sürülüb.

Bu ilin 8 avqust tarixində "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflandığının ABŞ liderinin şahidliyi ilə baş tutduğunu xatırladan deputat deyib ki, ABŞ ilə yeni müstəvidə və strateji müttəfiqliyə doğru irəliləyən münasibətlər, enerji və texnologiyalar sahəsində yeni əməkdaşlıq, o cümlədən 907-ci düzəlişin tətbiqinin dayandırılması Prezident İlham Əliyevin növbəti xarici siyasət uğurudur.

Deputat bildirib ki, dövlətimizin başçısının müdrik siyasəti və qətiyyətli addımları ölkəmizin bütün sahələrdə təhlükəsizliyini təmin etməkdədir: "Əminik ki, memarı olduğu sülhlə Azərbaycan xalqını, bütövlükdə region əhalisini parlaq və işıqlı gələcək gözləyir. Müharibəni qazanan İlham Əliyev sülhü də regiona gətirdi".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***